***ŞAGİRDLƏRİN ÖZÜNÜTƏHSİL PROBLEMLƏRİ***
***PUPILS' SELF-EDUCATION PROBLEMS***
***ПРОБЛЕМЫ САМООБРАЗОВАНИЯ УЧАЩИХСЯ***

*UOT 37.*

***Kübra Abuzər qızı Abdullayeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-9217-3528*
*abdullayevak93@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(5).162-167*

# ELMİ-PEDAQOJİ ƏDƏBİYYATLARDA ŞAGİRDLƏRİN YARADICI MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

***Kubra Abuzar Abdullayeva***
*doctorial student in the program of doctor of philosophy*
*at Institute of Education of the Republic of Azerbaijan*

# ISSUES OF ORGANIZING CREATIVE INDEPENDENT WORK OF STUDENTS IN SCIENTIFIC-PEDAGOGICAL LITERATURE

***Кюбра Абузар гызы Абдуллаева***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанский Республики*

# ВОПРОСЫ ОРГАНИЗАЦИИ ТВОРЧЕСКОЙ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ УЧАЩИХСЯ В НАУЧНО-ПЕДАГОГИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

**Xülasə.** Məqalədə elmi-pedaqoji ədəbiyyatlarda şagirdlərin yaradıcı müstəqil işinin təşkili məsələlərindən bəhs edilir. Müəllif elmi araşdırmalar əsasında əldə etdiyi nəticələri ümumiləşdirmiş və təhsil sistemində müasir dövrdə yaradıcı düşüncənin və müstəqil fəaliyyətin inkişaf etdirilməsi, şagirdlərin bilik və bacarıqlarını sərbəst tətbiq etmələri üçün müxtəlif metod və strategiyaların əhəmiyyətini vurğulamışdır.

Məqalədə yaradıcı müstəqil işin mahiyyəti, onun pedaqoji əsasları və tətbiq sahələri izah edilmişdir. Bundan əlavə, elmi-pedaqoji araşdırmalara əsaslanaraq, yaradıcı təlimin inkişaf etdirilməsi üçün səmərəli yanaşmalar və praktik həll yolları təqdim olunmuşdur. Şagirdlərin təşəbbüskarlığını artırmaq, onların tədqiqat və analitik düşünmə bacarıqlarını gücləndirmək məqsədilə istifadə edilən müasir pedaqoji texnologiyalar və innovativ metodlar təhlil edilmişdir. Bu tədqiqat müəllimlərin şagirdlərin yaradıcı müstəqil işini düzgün istiqamətləndirməsi üçün tövsiyələr də təqdim edir. Məqalədə irəli sürülən fikirlər və əldə olunan nəticələr təlim prosesində şagirdlərin yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün əhəmiyyətlidir. Belə ki, bu ideyalar şagirdlərin yaradıcı bacarıqlarının istiqamətləndirilməsinə zəmin yaradır. Onlarda gələcək nəsillərə ötürmək üçün toplanmış vacib biliklərin sistemləşdirilməsi üçün baza rolunu oynayır.
***Açar sözlər:*** *müstəqil iş, yaradıcılıq, şagird, müəllim, təlim prosesi, yanaşma, təlim texnologiyası, formalaşdırma, bacarıq, ideya*

**Abstract.** The article discusses the issues of organizing creative independent work of students in scientific-pedagogical literature. The author has generalized the results obtained from scientific research and emphasized the importance of various methods and strategies for developing creative thinking and independent activities, as well as for the free application of knowledge and skills by students in the modern education system.

The article explains the essence of creative independent work, its pedagogical foundations, and areas of application. Furthermore, based on scientific-pedagogical research, effective approaches and practical solutions for the development of creative teaching are presented. Modern pedagogical technologies and innovative methods used to increase students' initiative and strengthen their research and analytical thinking skills are analyzed. This research also offers recommendations for teachers on properly guiding students' creative independent work. The

ideas and conclusions presented in the article are significant for developing students' creative abilities in the learning process. These ideas lay the foundation for directing students' creative skills and serve as a basis for systematizing the important knowledge collected, which will be passed on to future generations.

***Key words:*** *Independent work, creativity, student, teacher, educational process, approach, teaching technology, formation, skill, idea.*

**Аннотация.** В статье рассматриваются вопросы организации творческой самостоятельной работы учащихся в научно-педагогической литературе. Автор обобщил результаты, полученные на основе научных исследований, и подчеркнул важность различных методов и стратегий для развития творческого мышления и самостоятельной деятельности, а также для свободного применения знаний и навыков учащимися в современной образовательной системе.

В статье излагается сущность творческой самостоятельной работы, её педагогические основы и области применения. Кроме того, на основе научно-педагогических исследований представлены эффективные подходы и практические решения для развития творческого обучения. Проанализированы современные педагогические технологии и инновационные методы, используемые для повышения инициативности учащихся, а также для укрепления их исследовательских и аналитических навыков.

Данное исследование также предлагает рекомендации для учителей по правильному направлению творческой самостоятельной работы учащихся. Идеи и выводы, изложенные в статье, имеют большое значение для развития творческих способностей учащихся в процессе обучения. Так, эти идеи создают основу для направленности творческих способностей учащихся, играют роль базы для систематизации собранных важных знаний, которые будут переданы будущим поколениям.

***Ключевые слова:*** *самостоятельная работа, творчество, ученик, учитель, учебный процесс, подход, учебная технология, формирование, умение, идея*

Müasir təhsil sisteminin əsas məqsədlərindən biri şagirdlərin müstəqil düşünmə və yaradıcı fəaliyyət bacarıqlarını inkişaf etdirməkdir. Bu məqsədə nail olmaq üçün təhsil proqramları təkcə nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, eyni zamanda, şagirdlərin analitik düşünmə qabiliyyətlərini gücləndirən və onları tədqiqatçı kimi formalaşdıran metodlar əsasında qurulmalıdır. Elmi-pedaqoji ədəbiyyatda yaradıcı müstəqil iş anlayışı şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirmək, onların bilikləri müstəqil əldə etmə və tətbiqetmə vərdişlərini formalaşdırmaq üçün mühüm bir vasitə kimi qiymətləndirilir.

Yaradıcı yanaşmanın fəallaşdırılması şagirdlərin bütün həyat fəaliyyətində daha səmərəli nəticələrin əldə olunmasına yardım edən təlim texnikasıdır. Daim yenilik axtaran şagirdin yetişdirilməsi onun bütün fəaliyyət sahələrində açıq təfəkkürlü olmasına, elm və cəmiyyət üçün faydalı ola biləcək, həmçinin öz həyatını daha optimallaşdıracaq yanaşmalar yaratmasına yol açır. Yaradıcılığı fəallaşdırmaq üçün ilk addım şagirdin yaradıcı qabiliyyətlərini kəşf etmək və bu sahə üzrə onu inkişaf etdirməkdən başlayır. Bu sahədə məqsədlər qoymaq, başqalarının köməyinə müraciət etmək və bacarıqları inkişaf etdirmək üçün hər gün vaxt ayırmaq zəruridir.

Yaradıcı müstəqil işin təşkili yalnız təhsil prosesinin effektivliyini artırmaqla kifayətlənmir, eyni zamanda, şagirdlərin tənqidi düşünmə, analitik təhlil və problem həll etmə bacarıqlarını gücləndirir. Elmi araşdırmalar göstərir ki, müstəqil iş vərdişlərinə yiyələnən şagirdlər öyrənmə prosesinə daha aktiv şəkildə qoşulur, yeni bilikləri qavrama və tətbiqetmə sahəsində daha uğurlu nəticələr əldə edirlər. Bununla yanaşı, yaradıcı müstəqil işin tətbiqi təhsil müəssisələrində interaktiv öyrənmə mühitinin formalaşdırılmasına, müəllim-şagird əməkdaşlığının gücləndirilməsinə və nəticədə daha səmərəli tədris modelinin qurulmasına şərait yaradır. S. Əsədova “Təhsildə Yaradıcılıq” adlı əsərində qeyd edir ki, yaradıcı düşüncənin inkişafı üçün müəllimlərin ənənəvi yanaşmalardan uzaqlaşıb, müasir pedaqoji metodlardan istifadə etməsi zəruridir (1, s.45). O, vurğulayır ki, layihə əsaslı öyrənmə metodları tələbələrin fərdi maraqlarına uyğun bilik qazanmasını və onların yaradıcılığını inkişaf etdirməsini təmin edir.

Yaradıcı qabiliyyətin inkişafına yardım edən bir sıra üsullardan müasir tədqiqatlarda istifadə edilən bir neçəsinin təhlilinə nəzər yetirək.

**Tənqidi Düşüncə.** Müasir təhsil sisteminin dinamikasında tələbələrin yaradıcı müstəqil işlərinin təşkili, yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin fərdi inkişafı, analitik düşüncə qabiliyyətinin artırılması və müstəqil qərar vermə bacarıqlarının

inkişaf etdirilməsi ilə bağlıdır. Elmi pedaqoji ədəbiyyatlarda bu məsələ ətrafında geniş müzakirələr aparılır, çünki yaradıcı müstəqil işin təşkili, tələbələrin yalnız akademik müvəffəqiyyətlərini deyil, eyni zamanda onların sosial, emosional və etik inkişafını da təmin edir. Yaradıcı müstəqil iş, tələbələrə öz maraq və bacarıqlarına uyğun fəaliyyətlərlə məşğul olmaq imkanı təqdim edir ki, bu da onların təhsilə olan münasibətini müsbət istiqamətdə dəyişir.

Bu kontekstdə, yaradıcı müstəqil işin təşkili, tələbələrin öz fikirlərini sərbəst ifadə etmələrini, yeni ideyalar inkişaf etdirmələrini və mövcud biliklərini tətbiq etmələrini tələb edir. Bununla yanaşı, tələbələrin yaradıcılıq potensialını artırmaq üçün müəllimlərin də bu sahədə aktiv rolu vardır. Müəllimlər, tələbələrin yaradıcı düşüncə tərzini stimullaşdırmaq üçün uyğun metodik yanaşmalar tətbiq etməlidirlər. Bunun üçün, interaktiv öyrənmə, layihə əsaslı təhsil, kooperativ öyrənmə kimi innovativ yanaşmaların tətbiqi vacibdir. Bu yanaşmalar, tələbələrin aktiv iştirakını, əməkdaşlığını və yaradıcı müstəqil işin keyfiyyətini artırmağı məqsəd qoyur. Müstəqil işin öncədən dəqiq müəyyənləşdirilmiş məqsəd, vəzifələrinin təhsil proqramına uyğunluğu şagirdlər yaradıcılığını inkişaf etdirməyə, düşüncə qabiliyyətini artırmağa və mövzunu dərinləşdirərək şagirdlər üçün anlayışını genişləndirməyə xidmət etməlidir.

Bununla yanaşı, yaradıcı müstəqil işin təşkilində bəzi çətinliklər və maneələr mövcuddur. Məsələn, tələbələrin motivasiyası və yaradıcı fikirlərin inkişaf etdirilməsi üçün uyğun mühitin yaradılması, bu prosesi əngəlləyən əsas amillərdəndir. Şagirdlərin marağını artırmaq üçün onlara ilham vermək vacibdir. Şagirdin motivasiyasını artıran və daha yaradıcı düşünməsinə imkan yaradan əsas şey müstəqil işin həm də maraqlı və cəlbedici olmasıdır. Şagirdlərin yaradıcı müstəqil işə cəlb edilməsi üçün kifayət qədər motivasiya olmaya bilər. Bu motivasiyanın olmaması, müəllimlərin bu sahədəki bacarıqlarının və yanaşmalarının zəifliyindən irəli gələ bilər. Eyni zamanda, müasir təhsil sistemində tətbiq olunan ənənəvi qiymətləndirmə metodları, yaradıcı müstəqil işin dəyərləndirilməsində əngəl törədə bilər. Belə ki, ənənəvi test və qiymətləndirmə sistemləri, tələbələrin yaradıcı düşüncəsini stimullaşdırmaq əvəzinə, onları müəyyən bir çərçivəyə salır. Tədqiqatçı N. Həsənova "Yaradıcı düşüncə və müstəqil işlər" əsərində vurğulayır ki, tənqidi düşüncə qabiliyyətlərinin inkişafı üçün müəllimlərin tədris metodlarını daim yeniləməsi və tələbələri sərbəst tədqiqat aparmağa həvəsləndirməsi vacibdir (2, s.52). T. Əliyev isə "Tələbələrin yaradıcılığının inkişafı" kitabında bu məsələyə diqqət yönəldərək bildirir ki, tələbələrə yaradıcı müstəqil işlər təqdim edilərkən onların maraqları nəzərə alınmalıdır. O qeyd edir ki, yaradıcı işlər tələbələrin yalnız dərs materiallarını əzbərləməsini deyil, onları analiz etməsini və tətbiq etməsini təmin etməlidir (3, s.38).

Tənqidi düşüncə çərçivəsində, bu problemlərin aşkar edilməsi və həll yollarının tapılması üçün müxtəlif yanaşmalar təqdim edilməlidir. Birincisi, müəllimlərin yaradıcı düşüncə tərzini təşviq edən pedaqoji metodlardan istifadə etməsi vacibdir. Bu metodlar, yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, həm də tələbələrin təcrübə və qabiliyyətlərini birləşdirməyə yönəlməlidir. Müəllimlər, tələbələrin öz ideyalarını sərbəst şəkildə ifadə edə biləcəyi bir mühit yaratmalıdırlar. Şagirdlərin müstəqil işləri dolğun şəkildə yerinə yetirməsi üçün lazımi resurslar (kitablar, internet mənbələrinə çıxış imkanları, video dərslər, laboratoriya avadanlıqları və s.) təmin edilməlidir. Resursların zənginliyi şagirdin müxtəlif mənbələrin fərqli məlumatlarına və metodlara müraciət etməsini asanlaşdırmış olur. Tələbələrin yaradıcı işlərini nümayiş etdirmək üçün sərgilər, konfranslar və təqdimatlar təşkil edilməli, bu zaman tələbələrin öz fikirlərini müdafiə etmələri təşviq edilməlidir.

İkincisi, yaradıcı müstəqil işin nəticələrinin qiymətləndirilməsi üçün alternativ metodlar inkişaf etdirilməlidir. Bu metodlar, tələbələrin yaradıcı prosesini və onların əldə etdiyi nəticələri əhatə etməlidir. Məsələn, tələbələrin öz işlərini təqdim etməsi, "peer-review" sisteminin tətbiqi və layihələrin qiymətləndirilməsi yolu ilə yaradıcı işin dəyərləndirilməsi mümkündür. Bu yanaşma, tələbələrin özlərinin fikirlərini ifadə etməyə, müzakirələrə qatılmağa və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirməyə imkan tanıyır. Bununla yanaşı, qiymətləndirmə prosesində tələbələrin öz fikirlərini bildirmələrinə, bir-birlərini qiymətləndirmələrinə və müzakirələr aparmalarına şərait yaradılmalıdır. Şagirdlərə öz müstəqil işlərini qiymətləndirmələri, nəticələrini təhlil etmələri onların inkişafı üçün ən vacib şərtlərdən biri hesab olunan özünütənqid etmək bacarığını yaratmış olur. Bu,

onların yaradıcı düşüncələrinin və sürətli əqli inkişafını stimullaşdırır.

**Yaradıcı Düşüncə.** Yaradıcı düşüncə şagirdlərin təhsil həyatında əhəmiyyətli bir rol oynayır. Bu düşüncə tərzi yalnız biliklərin əldə edilməsi ilə məhdudlaşmır, həm də şagirdlərin analitik düşüncə bacarıqlarını, problemlərin həllini, yenilikçi yanaşmalarını və fərdi yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir. Yaradıcı düşüncə, şagirdlərin təhsil sistemində uğur qazanması üçün vacib bir bacarıqdır. Təhsil prosesində yaradıcı düşüncənin inkişafı həm şagirdlərə daha geniş bir perspektiv qazandırır, həm də onların gələcəkdə qarşılaşacaqları çətinlikləri həll etmək qabiliyyətlərini artırır.

Yaradıcı düşüncə şagirdlərə yeni ideyalar irəli sürməyə, alternativ həll yolları tapmağa və müstəqil düşünməyə imkan tanıyır. Bu proses şagirdlərin öz fikirlərini sərbəst şəkildə ifadə etmələrini, müzakirələrə qoşulmalarını və müxtəlif perspektivlərdən məsələlərə yanaşmalarını təmin edir. Beləliklə, şagirdlər yalnız akademik bacarıqlarını inkişaf etdirmir, həm də sosial bacarıqlarını artırır. Müxtəlif ideyaların qarşılaşdırılması, komanda işinin təşviqi və müxtəlif fikirlərə açıq olmaq yaradıcı düşüncənin inkişafını stimullaşdırır. Təhsil müəssisələri şagirdlər üçün yaradıcı mühit təmin etməli, onların müstəqil fikir irəli sürməsinə şərait yaratmalıdırlar. Şagirdlərin yaratdığı işlər və ideyalar barədə müzakirələr aparılmalıdır. Çünki müəllim və şagirdlər arasında qarşılıqlı fikir mübadiləsi aparmaq nəinki şagirdlərin yaradıcılığını dəstəkləmiş olur, həm də onların öz işlərini daha dərindən analiz etmələrində əvəzsiz rol oynayır.

Yaradıcı düşüncənin inkişafı üçün uyğun təhsil mühitinin yaradılması çox vacibdir. Müəllimlər, şagirdlərin sərbəst düşünməyə, eksperiment etməyə və risklər götürməyə cəsarət etmələri üçün dəstəkləyici bir mühit yaratmalıdırlar. Bu mühit, şagirdlərə öz təşəbbüslərini inkişaf etdirmək, ideyalarını sərbəst şəkildə ifadə etmək və yaradıcı düşüncələrini inkişaf etdirmək imkanı verir. Yaradıcı düşüncənin inkişafına yardım edən təhsil mühiti həm də şagirdlərin öz yaradıcılıqlarını kəşf etmələrinə və öz daxili potensiallarını ortaya qoymalarına şərait yaradır.

Elmi araşdırmalar göstərir ki, yaradıcı düşüncə və innovasiya üçün aydın şəkildə müəyyən edilmiş vaxtın ayrılması vacibdir. Məsələn, Google öz komandalarından vaxtlarının ən azı 20%-ni yaradıcı düşüncəyə və ya yeni layihələrə ayırmağı tələb edir. Lakin, tez-tez yenilik etməyə hazır olduğumuzu göstərsək də, yenə də bəzi məsələlərin asanlıqla həll edilmədiyi aydın görünür. Belə bir şəraitdə yaranmış çətinliyin əsas səbəblərindən biri xəyal qurmağı məşq etməməkdir. Digər səbəb isə mərkəzi ideyalara diqqət yetirməməkdir.

Antik fəlsəfədə belə bir deyim var: "Əgər fikrini üç cümlə ilə ifadə edə bilmirsənsə, fikrin yoxdur!" Ən mühüm innovasiya bacarıqlarından biri yeni ideyanın çox qısa və aydın təsvirini təqdim etmək (iki-üç cümlə ilə) və qısa təqdimat (iki-üç dəqiqə ) etmək bacarığıdır. Tədqiqatlar göstərir ki, digər bacarıqlar kimi, düşüncələrini rahat şəkildə ifadə etmək bacarığı yalnız çox tətbiq edildikdə yüksək səviyyəyə çata bilər. Bunun üçün müəllimdən tələb olunan səbirdir. Şagirdlərə öz fikrini ifadə edə bilmək üçün səbirlə zaman ayırmaq lazımdır. Əfsuslar olsun ki, texnologiya və internetin qazandırdığı müsbət cəhətlərin genişliyi qədər mənfi cəhətləri də vardır. Onlardan biri də fikirlərini azad ifadə edə bilməmə və mimka-jestika qıtlığıdır. Bunu aradan qaldırmaq üçün müəllim dinləyici olmağı bacarmalıdır (4, s. 467).

Təlim prosesində yaş qrupundan asılı olmayaraq bütün uşaqlarda fərdi və yaş xüsusiyyətlərinə uyğun yaradıcı yanaşmanın formalaşdırılması üçün xüsusi zamanın ayrılması əhəmiyyətlidir. İnnovativ yanaşmaya vaxtın ayrılması günlük və həftəlik ola bilər. Dərsliklərə nəzər salsaq bunun həftəlik olmasının daha optimal olduğunu görərik. Lakin müəllim həftəlik planlamada hər gün üçün bir yaradıcılıq elementi daxil edərsə, bu həftənin daha yaradıcı keçməsinə səbəb olar.

Yaradıcı düşüncənin inkişafını stimullaşdırmaq üçün müxtəlif pedaqoji yanaşmalar mövcuddur. Bu yanaşmalar şagirdlərin analitik və yaradıcı düşüncə qabiliyyətlərini artırmaq üçün çox faydalıdır. Məsələn, layihə əsaslı öyrənmə metodunun tətbiqi şagirdlərə real həyat məsələlərinə yanaşmaq və bu məsələləri praktik həll yolları ilə müzakirə etmək imkanı verir. Həmçinin, problemlərə yönəlik yanaşmalar şagirdlərə mürəkkəb məsələlər üzərində düşünməyi, alternativ həllər tapmağı və yaradıcı yanaşmalar tətbiq etməyi öyrədir.

**Layihə əsaslı öyrənmə**. Bu metod vasitəsi ilə şagirdlər bir layihə üzərində işləyərək,

problem həll etmə bacarıqlarını inkişaf etdirirlər. Bu yanaşmada şagirdlər həm fərdi, həm də qrup şəklində düşünməyi öyrənir və daha dərin düşüncə tərzi formalaşdırırlar. Tanınmış pedaqoq və filosof Maria Montessori "Təhsil və azadlıq" adlı əsərində müstəqil yaradıcı işlərin təşkili məsələlərindən də bəhs edir və şagirdlərin sərbəst düşünmə, yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün müəllimin üzərinə böyük məsuliyyət düşdüyünü əsaslandırır. O, şagirdlərin təcrübə əsasında öyrənməyə imkan yaradılmasının vacibliyini vurğulayır. Tədqiqatçının fikrincə, hər bir şagirdin öz sürətində irəliləməsi və öz potensialını üzə çıxarmaq üçün uyğun mühitin yaradılması mühüm əhəmiyyət kəsb edir (5).

Yaradıcı düşüncənin inkişafında müəllimlərin rolu çox əhəmiyyətlidir. Müəllimlər şagirdlərin yaradıcı potensialını aşkar etməli, onları dəstəkləməli və bu inkişaf prosesində aktiv rol oynamalıdırlar. Müəllim şagirdləri öz ideyalarını ifadə etməyə təşviq etməli, onları yeni düşüncə yolları ilə tanış etməli və yaradıcı yanaşmalarla tədris prosesini zənginləşdirməlidir. Praqmatizm fəlsəfəsinin tanınmış nümayəndələrindən biri Con Dyu "Demokratiya və təhsil" əsərində yaradıcı düşüncənin inkişafı üçün müəllimlərin şagirdlərə yalnız bilik verməklə kifayətlənməməli, onların hər birini fərdi olaraq inkişaf etdirmək üçün imkanlar yaratmalı olduqlarını vurğulayır (6). Müəllimin şagirdlərlə doğru əlaqə qurması, onları təşviq etməsi və təhsilin hər mərhələsində onlara dəstək olması, yaradıcılıq prosesinin əsasını qoyur.

Yaradıcı düşüncə şagirdlərin təhsil həyatında əvəzolunmaz bir bacarıqdır. Bu bacarığın inkişafı yalnız tədris proqramlarının məzmunu ilə əlaqəli deyil, həm də şagirdlərin özlərini ifadə etmələri, alternativ həll yolları axtarmaları və yeni ideyalar irəli sürmələri üçün uyğun mühitin yaradılmasına bağlıdır. Müəllimlərin rolu da burada vacibdir, çünki onlar şagirdləri yaradıcı düşüncələrini inkişaf etdirməkdə dəstəkləyərək, onların gələcəkdə uğur qazanmaq üçün lazım olan bacarıqları əldə etmələrini təmin edirlər. Yaradıcı düşüncə təhsil sistemində uğurun açarlarından biridir və bu prosesin dəstəklənməsi şagirdlərin şəxsi və akademik inkişaflarına böyük təsir göstərir.

**Maraqların mükafatlandırılması.** Yaradıcılığı inkişaf etdirmək üçün ümumi maneələrdən biri marağın az olmasıdır. Müasir dövrümüzdə uşaqların texnologiyaya, ələlxüsus da internetə olan marağından istifadə etmək, təlimdə texniki vasitələrdən istifadə marağın artırılmasına yardımçı ola bilər. Bu gün uşaqların motivasiyasını daha çox xüsusi öhdəliklərin icrasına yönəlmiş tapşırıqlar artırır. Bu tapşırıqların yerinə yetirilməsi prosesində, yaxud onun nəticəsində mükafatlandırma yaradıcılığın inkişafında təkanverici rol oynayır. Bəzən təkcə sonda əldə edilən nəticə deyil, yaradıcılıq prosesinin özü mükafat qismində çıxış edir.

**Ekspert yanaşması.** Yaradıcılığı inkişaf etdirməyin ən yaxşı yollarından biri bu sahədə mütəxəssis olmaqdır. Mövzu haqqında zəngin anlayışa malik olmaqla, şagird problemlərin yeni və ya innovativ həlləri haqqında daha yaxşı düşünə biləcəkdir. Təcrübəni inkişaf etdirməyin bir yolu yaradıcı insanlar haqqında oxumaq və onların danışdıqlarını dinləməkdir. Bunun üçün film saatları təşkil etmək olar.

**Özgüvənin yaradılması**. Bacarıqlardakı etibarsızlıq yaradıcılığı zəiflədə və məhv edə bilər. Buna görə də özünə inam yaratmaq vacibdir. İnkişafa doğru addımları qeyd etmək, cəhdləri təriflämək və yaradıcılığı mükafatlandırmağın yollarını axtarmaq çox əhəmiyyətlidir. Bəzən uşaqlara verilən rəylərin effektsizliyi üzündən onlarda özünəgüvən səviyyəsi aşağı düşür, cəhdlər etməyə çəkinirlər. Buna görə də yaradıcı yanaşmanı beyinlərində bloklayır, daha çox hafizənin inkişafına xidmət edən fəaliyyətə istiqamətlənirlər.

**Yaradıcılığa vaxt ayrılması.** Yaradıcılıq qabiliyyətlərinin formalaşdırılmasına vaxt ayrılmazsa, onları inkişaf etdirə bilmək mümkün deyildir. Hər həftə bir növ yaradıcı layihəyə diqqət yetirmək üçün müəyyən vaxt təyin edilərsə, bu, daha sistemli yanaşma olar. Tədqiqatlar prosesində araşdırılmış məlumatlardakı əskikliyi görmək üçün tapşırığın həcmindən asılı olaraq bir həftə yetərli hesab edilə bilər.

**Uğursuzluq qorxusu ilə mübarizə aparmaq.** Səhv edə bilmək və ya cəhdlərdə uğursuz olmaq qorxusu şagirdin inkişafını iflic edə bilər. Belə hisslər keçirdiyi zaman şagirdlərə səhvlərin sadəcə prosesin bir hissəsi olduğunu xatırlatmaq gərəkdir. Yaradıcılığa gedən yolda bəzən büdrəsə də, sonda hədəflərinə çatacağı düşüncəsini şagirddə formalaşdırmaq, onu açıq düşüncə tərzinə (K. Dveyk nəzəriyyəsi) keçirmək şagird üçün dəstəkləyici mühitin təşkilidir.

**Çoxsaylı həllərin araşdırılması.** Növbəti dəfə problemə yanaşanda müxtəlif həll yol-

ları axtarmağa çalışmaq, ilk ideya ilə getmək əvəzinə, vəziyyətə yaxınlaşmağın başqa mümkün yollarını düşünməyə vaxt ayırmaqla mümkün variantları düşünmək bu metodun əsas xəritəsidir. Bu sadə fəaliyyət həm problem həll etmək, həm də yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirmək üçün optimal bir yoldur. Bu yolla şagird mümkün həllərdəki boşluqları görə və yeni həll yolu yarada bilər.

**Altı papaq texnikası.** Altı papaq texnikasına görə problemə altı fərqli perspektivdən baxmaq vacib bilmir. Bu texnikanın tətbiqi nəticəsində mövcud vəziyyətə bir neçə aspektdən yanaşmaq imkanı olur və sonda problemlə bağlı əhatəli fikir yaranır. Cədvəl şəklində müəllim rənglənmiş 6 papaq şəklini şagirdlərə təqdim edə bilər. Hər papaq bir suala həsr edilir:

- Qara papaq: Mənfi perspektivdən istifadə edin. Həllin hansı elementləri işləməyəcək?
- Mavi papaq : Geniş düşünün. Ən yaxşı ümumi həll nədir?
- Yaşıl papaq : Yaradıcı düşün. Bəzi alternativ fikirlər hansılardır?
- Qırmızı papaq : Vəziyyətə emosional baxın. Hissləriniz sizə nə deyir?
- Ağ papaq : Vəziyyətə obyektiv baxın. Faktlar hansılardır?
- Sarı papaq : Müsbət perspektivdən istifadə edin. Həllin hansı elementləri işləyəcək? (De.Bon.E, 2019).

**Nəticə.** Yaradıcı müstəqil işlərin təşkili, müasir təhsil sisteminin əvəzolunmaz tərkib hissəsidir. Şagirdlərin yaradıcı düşüncə qabiliyyətlərinin inkişaf etdirilməsi, onların biliklərini tətbiq etmə və problem həll etmə bacarıqlarını artırmaqla yanaşı, eyni zamanda sosial və emosional inkişaflarına da müsbət təsir göstərir. Elmi pedaqoji ədəbiyyatlarda şagirdlərin yaradıcı müstəqil işlərinin təşkilinin əhəmiyyəti geniş müzakirə olunmaqla yanaşı, bu sahədəki çətinliklərin və maneələrin aşkar edilməsi də vacibdir.

Müəllimlərin rolunun əhəmiyyəti burada önə çıxır. Müəllimlər, şagirdlərin yaradıcı düşüncələrini stimullaşdıran metodik yanaşmalar tətbiq etməli, onları dəstəkləməli və bu prosesi müsbət istiqamətdə yönləndirməlidirlər. Yaradıcı müstəqil işlərin təşkili üçün yaradıcı mühitin yaradılması, şagirdlərin öz ideyalarını sərbəst ifadə etmələrini, eksperiment etmələrini və tənqidi düşüncə qabiliyyətlərini inkişaf etdirmələrini təmin edir.

**Problemin elmi yeniliyi.** Yaradıcı müstəqil işlərin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi zəruridir. Alternativ qiymətləndirmə metodları, şagirdlərin yaradıcılıq qabiliyyətlərini daha ədalətli və şəffaf bir şəkildə qiymətləndirmək üçün geniş imkanlar təqdim edir. Bu yanaşma, şagirdlərin öz işlərini müdafiə etmələrini, fikir mübadiləsi aparmalarını və yaradıcı prosesin bir hissəsi olmalarını təşviq edir.

**Problemin elmi yeniliyi.** Yaradıcı müstəqil işlərin təşkili, yalnız şagirdlərin təhsil nailiyyətlərini deyil, həm də onların gələcəkdə uğurlu və yaradıcı fərdlər kimi yetişməsinə böyük təsir göstərir. Gələcək tədqiqatlar, bu sahədə daha geniş və dərin anlayışların əldə edilməsinə, həmçinin yaradıcı müstəqil işlərin effektivliyinin artırılmasına yönəlməlidir. Yalnız beləliklə, şagirdlərin potensialı maksimum dərəcədə ortaya qoyulacaq və müasir cəmiyyətin tələblərinə uyğun bir təhsil sistemi formalaşacaqdır.

**Problemin praktik əhəmiyyəti.** Təlim prosesində şagirdlərin yaradıcı bacarıqlarını inkişaf etdirmək üçün innovativ metodların tətbiqi imkanları genişdir. Bu imkanların ardıcıl və elmi-pedaqoji əsaslarla tətbiqi təlim keyfiyyətinin yüksəldilməsində, eyni zamanda şagirdlərin yaradıcı bacarıqlarının inkişafında mühüm rol oynayır.

**Ədəbiyyat:**


1. Əsədova, S. Təhsildə yaradıcılıq. -Bakı: Təhsil, -2020. -300 s.
2. Həsənova, N. Yaradıcı düşüncə və müstəqil işlər. -Bakı: Elm və Təhsil, -2021. – 220 s.
3. Əliyev, T. Tələbələrin yaradıcılığının inkişafı. -Bakı: AMEA-nın nəşri, -2019. – 250 s.
4. Fernández Díaz, JR, Llamas Salguero, F y Gutiérrez-Ortega, M (2019). Creatividad: Revisión del concepto. REIDOCREA, 8, 467-483.
5. Montessori, M. Təhsil və azadlıq. / M. Montessori. -Bakı: Elm və Təhsil, 1999. – 350 s.
6. Dyu, C. Demokratiya və təhsil. / C. Dyu -Bakı: Təhsil, 2004. – 400 s.
7. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. -Bakı, 2008. – 479 s.
8. Sadıqov, F.B. Ümumi pedaqogika: Dərs vəsaiti / F.B. Sadıqov. -Bakı, 2018. – 852 s.
9. De.Bon.E (2019) Six Thinking Hats. Penguin, Limited, 62-78.
10. JA Blanco-Herrera və DA Gentile, JN Rokkum. Video games can increase creativity, but with caveats. Creativity Research Journal 31 (2), 119-131.


**Redaksiyaya daxil olub:** 12.09.2025.